# *Türkiyəli ekspert:* "Azərbaycanın öz regionuna tam maneəsiz gediş-gəliş hüququ var"

**"Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat üzrə üzərinə götürdüyü bütün öhdəlikləri hələ də yerinə yetirməyib. Bu bəyanatda digər məsələlərlə yanaşı, Naxçıvanla Azərbaycanın şərq rayonları arasında nəqliyyat əlaqələrinin açılmasına dair bənd var".**



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin Uludağ Universitetinin professoru Mehmet Yüce deyib.

O, Zəngəzur dəhlizinin açılmasını təkcə region üçün deyil, bütün türk dünyasının maraqları baxımından strateji layihə adlandırıb.

M.Yüce Zəngəzur dəhlizinin açılacağı təqdirdə nəqliyyat marşrutunun Avropanı Asiya ilə birləşdirən Orta dəhlizin əsas arteriyasına çevriləcəyinə də əminliyini ifadə edib.

Professorun sözlərinə görə, regionda yeni kommunikasiya marşrutu Azərbaycanın özünün logistik potensialını gücləndirəcək, Asiya ilə Avropa arasında ticarətdə yeni imkanlar açacaq.

"Aydındır ki, belə genişmiqyaslı təşəbbüsün qarşısında təkcə Ermənistan deyil, həm də İrəvanı öz məqsədləri üçün manipulyasiya edən qüvvələr dayanır", - deyə o qeyd edib.

Ekspert İrəvanın mövqeyini qətiyyətlə pisləyərək vurğulayıb ki, Bakı öz regionu ilə əlaqə saxlamaq üçün heç bir ölkədən icazə almamalı, Naxçıvanla sərbəst və maneəsiz əlaqə saxlamaq hüququna malik olmalıdır.

"Təəssüf ki, sovet dövründə Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıb. Qərbi Zəngəzur da ermənilərə verildi ki, bu da onlara Azərbaycanın iki rayonu arasında yerləşməyə imkan verdi", - deyə Uludağ Universitetinin müəllimi əlavə edib.

Bununla bağlı professor Yüce Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə dediyi sözləri sitat gətirib: "Ermənistan Azərbaycandan Azərbaycana maneəsiz keçidi təmin etməklə öz öhdəliklərini yerinə yetirməlidir".

Azərbaycan.- 2025.- 11 fevral (№ 30).- S.2.